# Azərbaycan Ordusu dağlıq ərazilərdə aparılan hərbi əməliyyatlarda yüksək peşəkarlıq göstərib

***Prezident İlham Əliyev ölkəyə rəhbərliyə başladığı gündən ordu quruculuğunu prioritet vəzifə kimi daim diqqət mərkəzində saxlayıb. Vətənin müdafiəsi üçün ən mühüm məsələ ordu quruculuğunu inkişaf etdirmək, Silahlı Qüvvələrimizin maddi-texniki bazasını möhkəmləndirmək, ən müasir silahlarla təmin etmək və hərbçilərin həyat şəraitini yaxşılaşdırmaqdır. Bu istiqamətdə həyata keçirilən tədbirlər və qəbul edilən qərarlar, həmçinin hərbçilər arasında hərbi-vətənpərvərlik ruhunun yüksəldilməsi artıq öz bəhrəsini verib. Yenilməz ordumuz 2016- cı ildən başlayaraq, Ermənistan ordusuna layiqli cavab verir. Nəhayət, 2022-ci il noyabrın 10-da düşmən diz çökdü. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman ordumuz təcavüzkar Ermənistanın 30 illik işğalına son qoydu.***



2016- cı ilin Aprel döyüşləri, 2020- ci ildə Naxçıvanın Günnüt, həmçinin həmin il iyul ayında Tovuz əməliyyatı zamanı Azərbaycan Ordusu Ermənistan siahlı Qüvvələrindən qat-qat güclü olduğunu təsdiqlədi. 2020-ci ilin noyabrı isə Ermənistan ordusunun məğlubiyyətinin pik nöqtəsi oldu. Rəşadətli ordumuz hərb tarixinə yenilik kimi düşən strategiyanı tətbiq edərək, ən müasir silahlardan istifadə olunmaqla, habelə minimal itkilər verməklə, qısa müddət ərzində düşmənin əksər hərbi texnikasını məhv etdi, canlı qüvvəsinə ciddi zərbə vurdu. Özü haqqında məğlubedilməzlik sindromu yaradan Ermənistan silahlı qüvvələri qısa müddət ərzində darmadağın edildi. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu canı-qanı bahasına düşmənin məğlubedilməzliyi barədə illərdir formalaşdırılmış yalanı İkinci Qarabağ döyüşlərində cəmi 44 gün ərzində yerlə-yeksan etdi. Bu qələbə anti- Azərbaycan qüvvələri xalqımızın iradəsi ilə hesablaşmağa vadar etdi.

Ordumuzun döyüş hazırlığı səviyyəsinin daha da yüksəldilməsi, şəxsi heyətin müasir silah və texnikadan məharətlə istifadə bacarığına yiyələnməsi üçün maddi-texniki bazanın inkişaf etdirilməsi, qabaqcıl üsulların tətbiqi ilə təlim və tədris sisteminin daim təkmilləşdirilməsi, hərbi təhsilin və hərb elminin günün tələbləri səviyyəsinə qaldırılması üzrə bir sıra əhəmiyyətli tədbirlər görülərək bu sahədə işlər davam etdirilir, şəxsi heyətin yeni döyüş şəraitinə uyğun təlimlərinə diqqət artırılır. Təsadüfi deyil ki, dünyanın inkişaf etmiş dövlətləri Azərbaycan Silahlı Qüvvələrinin hərbi taktiasını öyrənir. Sirr deyil ki, dünyanın aparıcı hərbi məktəblərində İkinci Qarabağ müharibəsindəki əməliyyatlarımız, uğurlarımız, Qələbəmiz öyrənilir. Dünyanın aparıcı kütləvi informasiya vasitələrində də dəfələrlə məlumat verilmişdir ki, Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Almaniya və inkişaf etmiş digər ölkələr İkinci Qarabağ müharibəsinin bütün aspektlərini, daha doğrusu, Azərbaycan Silahlı Qüvvələrinin hərbi taktiasını öyrənir.

Beynəlxalq hərbi ekspertlərin qənaətinə görə, hücum dronlarının döyüşdəki yüksək hədəf dəqiqliyi dünya hərb tarixində bir ilkdir. Ordumuzun hərbi taktikasını, döyüş qabiliyyətini yüksək qiymətləndirən hərbi ekspertlər bu fikirdədirlər ki, Azərbaycan Ordusunun döyüş , hətta ən fövqəlgüc ölkələrin ordularında da qeydə alınmayıb. Şuşanın azad edilməsi uğrunda hərbçilərimizin nümayiş etdirdiyi qeyri-adi peşəkarlıq bu gün də beynəlxalq aləmdə öyrənilir.

Hazırda Azərbaycan Ordusunun yüksək peşəkarlığı – gecə şəraitində yüksək dağlıq ərazidə peşəkar hərbi əməliyyatın aparılması beynəlxalq hərbi ekspertlər tərəfindən yüksək dəyərləndirilir. Bu il sentyabrın 12-dən 13-nə keçən gecə Ermənistan–Azərbaycan sərhədində baş vermiş son hərbi toqquşmalarda çoxlu sayda strateji əhəmiyyətli yüksəkliklər və strateji marşrutlar Azərbaycan Ordusunun nəzarətinə keçdi. Gecə şəraitində 3000 metr dağlıq ərazidə aviasiya cəlb olunmadan hərbi əməliyyatın aparılması kimi imkanlar demək olar ki, əksər NATO ölkələrində yoxdur.

Erməni hərbi ekspertləri də bu döyüşlərdə irkilərin sayının çox böyük olduğunu etiraf edərək bildiriblər ki, Azərbaycan Silahlı Qüvvələri böyük ərazini nəzarət altına aldılar. Erməni hərbi ekspert Van Hambarsumyan etiraf edir ki, itkilərimiz çox böyükdür: “Bu, çox böyük rəqəmlərdir. Bu rəqəmləri açıqlamağı Ermənistan hərbi rəhbərliyinin vicdanına buraxıram. Qoy hərbi əsirlərin, ölənlərin və yaralananların sayını onlar özləri açıqlasınlar”.

Ermənistanın gücləndirilmiş bunkerlər və postlar qurması heç bir nəticə vermədi və rəşadətli ordumuz bütün bunların hamısını qısa vaxtda neytrallaşdırdı.Təbii ki, ordumuz çox çətin olan bu əməliyyatları lokal şəraitdə icra etdi. Həm yüksək relyefli ərazilər, xüsusən də bir çox yerlərdə 1500–3000 metr dağlıq ərazi, bunun gecə şəraitində icra edilməsi, eyni zamanda, sivil əhaliyə ziyan vermədən, atəş və aviasiya dəstəyi olmadan bu əməliyyatları icra etmək növbəti unikal bir əməliyyat sayılır.

Qısa müddət ərzində ciddi sayıla biləcək dərinlikdə bir çox ərazilər rəşadətli ordumuz tərəfindən nəzarətə götürülüb. Sərhədlərimiz delimitasiya olunmasa da, bu ərazilərin gələcək proseslərə ciddi töhfəsi olacaq. Azərbaycan öz haqq işində daim haqlıdır.

***Əliqismət BƏDƏLOV,***
***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2022.- 21 sentyabr.- S.3.